# Azərbaycan-Ukrayna əlaqələrinə dair fikir mübadiləsi aparılıb



Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 24-də Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusevlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan və Ukrayna əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Ölkələrimizin etibarlı tərəfdaş olduqları, münasibətlərin möhkəm təməllərə əsaslandığı diqqətə çatdırılıb. Ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birinə qarşılıqlı dəstək göstərdikləri vurğulanıb.

Söhbət zamanı humanitar sahədə də əməkdaşlığın vacibliyi qeyd edilib. Azərbaycan və Ukrayna xalqlarını bir çox ortaq dəyərlərin birləşdirdiyi və bunun xalqlarımızı daha da yaxınlaşdırdığı diqqətə çatdırılıb.

Səfir Yuri Qusev Prezident İlham Əliyevə doğum günü münasibətilə təbriklərini çatdıraraq, ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycanın dövlət başçısının müstəsna rolunu qeyd edib.

Diplomat, həmçinin parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. Diqqətə çatdırılıb ki, seçkiləri Ukrayna parlamentinin müşahidəçiləri də izləyiblər.

Söhbət zamanı Azərbaycanın evsahibliyi ilə keçirilən COP29-un yüksək səviyyədə təşkili ilə bağlı da fikirlər səsləndirilib.

Görüşdə parlamentlər arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluq bildirilərək, bu münasibətlərin daha da inkişafına dair müzakirələr aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 25 dekabr (№285).- S.17.